# Milli mətbuatımızın XIX əsrin sonunda Azərbaycan xalqının milli oyanışında töhfələri

**Nərmin Elxan qızı Nəzərova**
*Azərbaycan Universiteti*
**E-mail:** nerminnezerova98@gmail.com

**Rəyçilər:** t.ü.f.d., dos. R.B. Əsədova,
t.ü.e.d. Q.Ə. Hacıyev

**Açar sözlər:** mətbuat, H. Zərdabi, "Əkinçi", S. Ünsizadə, "Ziyayi-Qafqaziyyə", C. Ünsizadə, "Kəşkül", milli azadlıq

**Ключевые слова:** пресса, Х. Зардаби, «Акинчи», С. Унсизаде, «Зияи-Гафказийя», Дж. Унсизаде, «Кашкуль», национальная свобода

**Key words:** press, H. Zardabi, "Akinchi", S. Unsizade, "Ziyayi-Qafqaziyya", J. Unsizade, "Kashkul", national freedom

Azərbaycan Respublikası dünyanın qədim dövlətçilik ənənələrinə sahib ölkələri sırasındadır. Azərbaycan tarixinin XIX-XX əsr dövrləri isə özünün həm mədəni- elmi, həm də iqtisadi-siyasi tarixində xüsusi əhəmiyyət daşıyan bir mərhələsidir. Dövrün əhəmiyyət kəsb edən hadisələrindən biri də XIX əsrdə biz Azərbaycanda orta əsrlərdən gələn yazı mədəniyyətinin nəzərə çarpacaq dərəcədə inkişafının şahidi oluruq. Lakin mətbuat sahəsində durğunluq əsrin ikinci yarısına qədər davam etmiş, milli mətbuatımızı yarada bilməmişdik. Bu dövrə qədər isə Azərbaycanla əlaqəli mətnlər xarici mətbəələrdə dərc edilmişdir.

XIX əsrin ortalarından başlayaraq Azərbaycan xalqının həyatında demək olar ki, hər bir sahədə milli-mənəvi oyanış baş verməkdə idi. Şimali Azərbaycanda iqtisadiyyatın inkişafı, eləcədə kapitalist münasibətlərin meydana gəlməsi ölkənin mədəni inkişafı üçün də töhfələrini vermişdi. Bu zaman, öndə gələn ziyalılarımızın əsas məramlarından biri çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə, ilk öncə isə xalqda milli mənlik şüurunu formalaşdırmaqdan ibarət olmuşdur. Bu dövrdə fəaliyyət göstərmiş maarifçilərimizdən A.A.Bakıxanov, Q.Zakir, İ. Qutqaşınlı, M.F. Axundov, H. Zərdabi, M.Ş. Vazeh və başqaları yaxşı başa düşürdülər ki, xalqda milli özünüdərk və milli şüurun formalaşmasındakı ilk addım xalqın maarif və savada yiyələnməsi idi. Bu yolda isə milli mətbuatımızın əsasının qoyulması və onun xidmətləri danılmazdır. Və bu bir faktdır ki, milli mətbuatımızın təşəkkülü, ictimai- milli şüurumuzun inkişaf tarixi ilə eyni dövrə təsadüf edir. Çünki bu prosesin inkişaf verici qüvvəsi milli mətbuatdır (2).

Azərbaycanın böyük təbiətşünas alimi, eyni zamanda görkəmli jurnalisti olan Həsən bəy Zərdabinin imzası altında 1875-ci ilin iyulun 22-də Bakıda nəşr olunan "Əkinçi" qəzeti ilə təkcə Azərbaycanda milli mətbuatın əsası qoyulmamış, müsəlman şərqində ilk milli mətbuat Şimali Azərbaycanda yaranmışdı. Qəzet Azərbaycanda feodal quruluşunun eybəcərliklərinə, onun doğurduğu iqtisadi, ictimai, mədəni tənəzzülə qarşı geniş mübarizə cəbhəsi açdı (7). "Əkinçi" ətrafında dövrün bir çox görkəmli ziyalıları cəmləşsə də, qəzetin əsas təşkilatçı və istiqamətverici qüvvəsi Həsən bəy Zərdabi idi. H. Zərdabi qəzetdə nəşr etdiyi baş məqalələrində - maarifçilik, təbiət elmləri, ana dilində təhsil eyni zamanda dərs kitablarının yaradılması, kənd təsərrüfatı, dini xurafat kimi məsələlərə toxunur, ölkədəki məmur özbaşınalığını tənqid edirdi. O, mətbuatın insanlar üzərindəki həm tərbiyəvi rolunu, həmdə siyasi təsirini yaxşı

anlayır, Azərbaycanda mətbuat işinin inkişaf etdirilməsinə çalışırdı.

H. Zərdabinin banisi olduğu "Əkinçi" qəzeti yeni-yeni mütərəqqi addımlar ataraq, Azərbaycanda ictimai-mədəni fikrin inkişafına yol açmaqla, xalqın inkişafında və tərəqqisində əhəmiyyətli dərəcədə rol oynamışdır. Bu yolda Həsən bəy tək irəliləməmiş, qəzetin fəal əməkdaşları olan M. F. Axundov, Məmmədtağı Əlizadə Şirvani, N. Vəzirov və başqaları bütün imkanlardan istifadə edərək təhsilə dair məsələlərin həllinə çalışır, yeni qiraətxanalar açırdılar. "Əkinçi" səhifələrində dərs proqramı və dərsliklərin yenidən tərtibi məsələlərini qaldıraraq, orada dünyəvi elmlərin əsas yer tutmasını vacib sayırdılar (3). Bu dövr qeyd etdiyimiz kimi həm də milli oyanış və azərbaycançılığın inkişafı kimi səciyyələnir, dövrü mətbuat yetəri qədər bu inkişafa öz töhfəsini verməyə çalışırdı. "Əkinçi" qəzeti maarifçi ziyalılarımız üçün bir növ tribuna rolunu oynayır, qəzetin səhifələrində qoyulan mövzular xalqın gözünü açmasına, dünya görüşünün formalaşmasına kömək edirdi. XIX əsrin 70-ci illərinin sonunda qadın məsələləri və qadın problemlərinin işıqlandırılmasında və onların hüquqlarının müdafiəçisi kimi çıxış edən "Əkinçi" qəzeti mütəmadi olaraq qadınlarımızın problemlərindən də bəhs edirdi. Bünövrəsi "Əkinçi" dən qoyulan qadın problemlərinin mətbuat vasitəsilə islahına çalışılması XX əsrin əvvəllərində də yenidən və qətiyyətlə gündəmə gətirilmişdi (8).

Milli mətbuatımız bütün çətinliklərə baxmayaraq dövrün reallıqlarını, acı gerçəkliklərini dolğun şəkildə əks etdirməyə çalışırdı. İki həftədə bir dəfə çap olunan qəzetin səhifələrində ən önəmli məsələlərə dair yazılar - hansı ki, mədəni gerilik, cəhalət və mövhumat tənqid edilir, yenilik, tərəqqi, maarif həmçinin mədəni inkişafın geniş şəkildə təbliği aparılırdı. O, "Əkinçi"də bilik, maarif və mədəniyyəti təbliğ edərək bunlara sahib olmağın zəruriliyinin dönə-dönə vurğulayaraq yazırdı: "Bizim ilə zindəganlıq cəngi edən millətlər elm təhsil edirlər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoş güzəranlıq onların əlinə keçəcəkdir və biz mirür ilə zindəganlıq cəngində məğlub olub tələf olacağıq" (5). H. Zərdabinin və "Əkinçi" qəzetinin ən böyük xidmətlərindən biri də xalqın içərisində dil və din birliyi ideyasını irəli sürməklə xalqı əsarətdən qurtarmağa israrla addımlar atması olmuşdur. O eyni zamanda türk xalqları arasındakı mənəvi yaxınlığı təmin etməyi unutmamış, türk dillərinin birləşməsinin vacibliyi fikrini önə çəkmişdir. Beləliklə, dil birliyinin yaranıb-inkişaf etməsinə yardımçı olan, eyni zamanda doğma dildə nəşr olunan bu qəzetin gördüyü işlər əks-səda doğurmuş, toxunduğu məsələlərin əhəmiyyətinə görə böyük nüfuz qazanmışdı. "Əkinçi"nin ünü Londana, Nyu-Yorka qədər gedib çıxmışdı.

Əsası "Əkinçidə" qoyulan və milli oyanışa gətirib çıxaran dil və din birliyinin yaradılması, ana dilində təhsil verən məktəblərin açılmasına mənəvi dəstəyin verilməsi və ən əsası "ittifaqı millət"- milli birlik fikrinin ortaya atılması (6) məhz 2 illik (1875-1877) bir zaman kəsiyində baş verdi. Təəssüflər olsun ki, H.Zərdabi və onun yoldaşlarının qəzetdəki gərgin əməyi, xalqı maarifləndirmək istəyi çar senzorlarının və erməni siyasətçilərinin nəzərindən yan keçməmişdi. Öz məqsəd və amalını milli oyanış istiqaməti üzərində götürən "Əkinçi" qəzeti 1877-ci ildə bağlandı. Lakin ilk milli mətbuatımız fəaliyyət göstərdiyi qısa zaman kəsiyində yetəri qədər işini görmüş, onun bəhrəsi isə çox keçmədən özünü büruzə verməyə başlamışdı. Bunu aydın şəkildə "Əkinçidən" sonra fəaliyyət göstərmiş mətbu orqanlarının işində görmək olurdu. Belə ki, XIX əsrin sonuncu onilliyində Şimali Azərbaycanın ziyalıları tərəfindən də "Azərbaycan", "azərbaycanlı", "Azərbaycan milləti", "Azərbaycan türkü" və "Azərbaycan – türk dili" anlamları qəti və aydın surətdə gündəmə çıxarılmışdır" (6).

Görkəmli tarixçi alim, professor S. Əliyarlı haqlı olaraq yazırdı ki, milli hərəkatımızın Əkinçi dövründə böyük işlər görülmüş, "Türk milləti" anlayışı gündəmə gətirilmişdi. Bunlar-

dan savayı "Əkinçidə" nəşr edilən maarif- təhsil tipli yazılar, dərs proqramları, yeni tipli məktəb layihələrinin yaradılması kimi məsələlərin irəli sürülməsi, azərbaycanlıların milli birlik yolunda uğurla addımlamalarının bariz nümunəsi olmuşdur. Şimali Azərbaycanda milli mətbuatın əsasını qoyan və cəmi 56 sayı işıq üzü görən "Əkinçi" qəzetimiz nəinki Azərbaycanda, Rusiya müsəlmanlarının da həyatında böyük iz qoymuşdur. Ən əsas tarix isə odur ki, Azərbaycan milli azadlıq hərəkatı tarixi öz başlanğıcını məhz "Əkinçidən" götürür. 1875-ci ildən 1904-cü ili əhatə edərək, müvafiq şəkildə "Əkinçi" dövrü adlandırılmış, hərəkatın ideya cücərtiləri meydana gələrək, onun ideoloji prinsip və nəzəri əsasları hazırlanıb, irəli sürülmüşdür. Bu dövrdən etibarən milli oyanış baş vermişdir (6).

"Əkinçi" qəzeti özündən sonrakı mətbuat orqanları üçün bir məktəb, önü açılmış uğurlu bir yol idi artıq. Ondan sonra nəşr edilən milli mətbuat orqanları da, xalqın tərəqqisi və milli mənlik şüurunun formalaşması naminə mühüm işlər görməyə başladılar. Belə milli nəşrlərimizdən biri də Tiflisdə Səid Ünsizadə redaktorluğu ilə nəşr edilən "Ziya" qəzeti oldu. 1879-cu ildə nəşr edilən qəzet az sonra öz fəaliyyətini "Ziyayi-Qafqaziyyə"adı altında davam etdirmişdir. "Əkinçidə" olduğu kimi burada da əsasən cəmiyyətin ziyalı, maarifpərvər üzvləri toplanmışdı. H. Zərdabi, S.Ə. Şirvani, C. Ünsizadə, N. Vəzirov, M. Şahtaxtlı və başqaları qəzet səhifələrində fəal şəkildə çıxış edərək, "Əkinçi" ənənələri ətrafında sıx birləşmiş, bu ənənələri, onun əsas bildiyi məsələlərin təbliğini davam etdirməyə çalışırdılar.

"Ziya"da nəşr edilən məqalələrdə dünyada baş verən mühüm hadisələrdən də bəhs edilirdi ki, bu proses qəzetin xarici ölkələrə aid 2 şöbəsində həyata keçirilirdi. Bu mətbuat orqanımızda da elm, maarif, mədəniyyəti, xalqı tərəqqiyə, oyanışa səsləyən yazılar, felyetonlar nəşr edilməklə yanaşı, dini xurafatı, cahilliyi pisləyən yazıları da görmək olardı. Qəzetin redaktoru S. Ünsizadə ictimai fəaliyyəti dövründə, həyatın hər bir sahəsində baş verən yenilikləri mümkün qədər xalq arasında yaymağa çalışırdı. Hələ 1875-ci ildə Şamaxıda olan zaman dövrün tələblərinə cavab verən mütərəqqi bir məktəb açmış, bu zamanda məktəbdə ana dili və rus dili dərsləri, coğrafiya, hesab fənləri ilə yanaşı, dini elmlərin tədrisi də aparılmışdır. Ünsizadənin 1882-ci ildə burada nəşr etdirdiyi "Məktəblərimiz və mədrəsələrimiz barəsində bir neçə söz" məqaləsində bu dövrə uyğun dərs proqramları və dərsliklərin yazılması, savadlı kadrlar hazırlanması, yeni məktəblər şəbəkəsinin açılması kimi zəruri məsələlər önə çəkilmişdi. Burdan görünür ki, "Əkinçi" kimi, "Ziya" qəzeti də milli azadlıq hərəkatı zamanı özünün öhdəsinə düşən ictimai-milli vəzifəni yetəri qədər yerinə yetirməyə çalışmışdır. Qəzetin nəşri 1884-cü ildə nəşr üçün maddi-vəsaitin olmaması səbəbində dayandırılmışdır.

Əsrin sonuna yaxın milli birlik ideyalarını cəmiyyətdə təbliğ edən mətbu orqanlarımızdan biri də nəşrinə 1883-cü ilin yanvarında başlanılan və naşiri Cəlal Ünsizadə olan "Kəşkül" jurnalı idi. Tiflisdə çap olunmağa başlayan jurnalın 11 sayı dərc edildikdən sonra, 1884-cü ilin mart ayından qəzet kimi fəaliyyətini davam etdirdi. Burada ədəbiyyata, incəsənətə, elm və mədəniyyətə dair məqalələr, həmçinin Avropa ədəbiyyatından tərcümələr dərc edilirdi. Qəzet öz səhifələrində dünya ədəbiyyatına geniş yer ayırmaqla bir növ, azərbaycanlıların dünyaya inteqrasiya olunmasına, Qərbin həm elmindən, həm də ictimai-bədii sərvətindən bəhrələnməyə səsləyirdi. "Kəşkül" qəzeti redaksiyasında nəşr edilən məqalələrə nəzər yetirdikdə buradakı yazılarda onun siyasi məsələlərə xüsusi önəm verdiyini müşahidə edirik. Belə ki, Azərbaycan mətbuat tarixində ilk dəfə məhz "Kəşkül" qəzetində "millət" məfhumu aydınlaşdırılmışdır.

Artıq 19-cu əsrin 80-ci illərindən xalqın milli mənliyini dərk etmə cəhdlərini görə bilirik. Bu işin inkişafına mətbuatda qaldırılan problemlərin təsiri heç şübhəsiz danılmaz bir əsasdır. "Kəşkül" qəzeti də bu amalda öhdəsinə düşəni yetərincə etməyə çalışmış, onun 1890-cı ildə dərc edilən bir nömrəsində ilk dəfə olaraq "Azərbaycan milləti" ifadəsi işlədilmişdir. Be-

ləliklə, "Kəşkülü" həm siyasi həm də ədəbi jurnal-qəzet adlandırmaq olardı.

Qeyd edildiyi kimi, özündən əvvəlki nəşr edilən dövrü mətbuat ənənələrini davam etdirən "Kəşkül" qəzeti bu səbəbdən çar senzurası diqqətindən kənarda qala bilməzdi. Burada nəşr edilən sosial-siyasi tipli yazılan bir qismi rus dilindəki mərkəzi nəşrlərdən, yaxud da yayılması işinə icazə verilməyən xarici mətbuat orqanlarından götürülürdü. Bir müddət sonra isə bu prosesə də icazə verilməmişdir. Çar orqanları bu cür yazıların Qafqazdakı müsəlmanlar arasında yayılmasını təhlükəli hesab edirdi.

Ziyalılarımızın "Əkinçi", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" kimi qəzetlərdə böyük önəm daşıyan yazıları ilə çıxış etməsi, həmçinin, özlərinin ardıcıl və məqsədyönlü fəaliyyəti ilə mətbuatın verdiyi əlverişli vəziyyətin birgə yoğrularaq əldə edildiyi nəticəsi, Azərbaycan xalqının milli şüurunun formalaşması demək idi. Və milli mətbuatımızın yaratdığı bu əlverişli şərait, maarifçiliyimizdə də yeni düşüncələrin yaranmasına gətirib çıxarmışdı. Milli azadlıq hərəkatı dönəmi baş verən bu təkamül və milli-siyasi yetkinlik mərhələləri, mətbuatın eyni zamanda ictimai-bədii fikrin əsl vətənpərvərlik nümunəsi ilə çoxillik gərgin fəaliyyəti sayəsində uğurla başa çatdı (4). "Kəşkül" bu dövrdə azərbaycançılıq ideyasının oyanmasında bilavasitə iştirak etdi, millət və din məfhumlarının fərqli anlamlar olmasını xalqa çatdırmağa çalışdı. C. Ünsizadə təkcə qəzet deyil, kitab nəşri üçün də senzordan razılıq ala bilmiş, beləliklə 1889-cu ildə "Kəşkül" mətbəəsi fəaliyyətə başlamışdır. Burada nəşr edilən kitabların da əsas ideya- istiqaməti elm, təhsil və din məsələlərini əhatə edən kitablar olmuşdur. Həmçinin, məktəblər üçün dərsliklər və bədii əsərlər mütəmadi şəkildə dərc edilirdi. Azərbaycan milli azadlıq hərəkatına öz töhfələrini verən "Kəşkül" qəzetindən savayı, onun mətbəəsi də Azərbaycanda mətbəə işinin inkişafına təkan vermişdir.

XIX əsrin sonlarından etibarən ana dilində milli mətbuat orqanlarımızın nəşr edilməsinə artıq icazə verilmirdi. Bu, Rusiya hakimiyyətinin Azərbaycanda apardığı müstəmləkəçi, eyni zamanda ruslaşdırma siyasətinin bariz nümunəsi idi. Lakin çar hakimiyyətinin bu siyasətinə qarşı azərbaycanlı ziyalılarımızın mübarizəsi heç vaxt sönməmiş, ana dilli mətbuat ənənələrinin davam etdirilməsinə hər vəchlə çalışmışlar. Çünki ictimai-siyasi ideyalar və milli oyanışda ana dilli mətbuatın əhəmiyyətini çox yaxşı anlayırdılar. "Kəşkül" bağlandıqdan iki ay sonra, yəni 1891-ci ilin dekabrında Ünsizadə qardaşlarından Kamal bəy "Azərbaycan" adında qəzet nəşrinə icazə istəsə də, çar orqanları buna imkan vermədilər[1]. "Azərbayan" qəzetindən sonra, ziyalılarımızın daha iki - ana dilli və rus dilli qəzetin açılması uğrunda mübarizəsinə baxmayaraq bu iş də uğursuzluğa düçar olmuşdu. XX əsrin əvvəllərinə qədər ana dilli mətbuat orqanımız fəaliyyət göstərməsə də elm və siyasi xadimlərimiz ölkə ərazisində çap edilən digər mətbuat orqanlarının səhifələrində çıxış etməyə davam etmişlər. Yalnız 1903-cü ildə "Şərqi-Rus" qəzeti bu idealların gerçəkliyə çevrilməsinə yardımçı oldu. Beləliklə, əsrin əvvəllərindən etibarən Azərbaycan xalqı özünün milli azadlıq hərəkatının inkişafına təkan verən ana dilli mətbuatına qovuşmuş oldu.

**Məqalənin aktuallığı.** Məqalədə XIX əsrin sonunda Azərbaycanın ictimai-sosial, eyni zamanda siyasi həyatında milli mətbuatımızın oynadığı rol, verdiyi mühüm töhfələrdən, həmçinin Azərbaycan xalqının milli oyanışındakı əhəmiyyətindən bəhs edilir.

**Məqalənin elmi yeniliyi.** Mövzunun adı bir sıra məqalələrdə yaxud tədqiqat işlərində keçsə də, geniş şəkildə bəhs edilən dövrdə Azərbaycan xalqının milli oyanışına töhfələri məqalədə geniş şəkildə öyrənilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə yazılan zaman müqayisəli və analitik metodlardan istifadə edilmişdir. Eyni zamanda burada Azərbaycan tarixinin XIX əsrin 70-80-ci illər mətbuat tarixi araşdırılmış, məqalədən elmi mənbə kimi istifadə etmək mümkündür.

## Ədəbiyyat


1. Aşırlı A. Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı: Elm və Təhsil, 2009.
2. Baxışova R. Şimali Azərbaycanın Qarabağ regionunda kitab işi və mətbuat (XIX-XX əsrin əvvəlləri) - Türkiyə Uluslararası Araştırmalar Dərgisi, Türkiyə, 2017, № 11.
3. Bayramoğlu A. Azərbaycan ictimai-bədii fikrinin inkişafında "Əkinçi" qəzetinin rolu // "Azərbaycan dili və ədəbiyyatı tədrisi, 1997, № 2.
4. Bayramoğlu A. Azərbaycan mətbuatı, milli mənlik şüuru və senzura məsələləri // Ulduz, 2000, № 7.
5. "Əkinçi" (1875-1877). Tam mətni, Bakı, 1979.
6. Əziz B. Cümhuriyyətə gedən yol: milli azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları. Bakı: Çapar, 2020.
7. Kərimov Z. Şimali Azərbaycanda ictimai-siyasi hərəkatın tarixində mətbuatın rolu (XX əsrin əvvəlləri). Bakı, 2014.
8. Nəzərova N. Azərbaycan Xalq Cümhuriyyəti dönəmi - Azərbaycan qadınları, World Women Conference II konfransının materialları. Bakı, 2020.


**Н.Э. Назарова**

## Вклад нашей национальной прессы в национальное пробуждение азербайджанского народа в конце XIX века

### Резюме

Период становления общественно-политической и национальной литературной мысли в Азербайджане приходится на конец XIX века. Кроме того, начало борьбы за просвещение и национальную печать в нашей стране, становление национально-освободительного движения - одна из характерных черт этого периода. Таким образом, пресса, способствующая развитию наций и национального самосознания, проделала большую работу для прогресса азербайджанского народа и пробуждения национального самосознания. В статье исследуются роль и значение прессы в общественной и политической жизни Северного Азербайджана в этот период, а также обсуждаются взаимоотношения между азербайджанским национально-освободительным движением и нашей национальной прессой.

**N.E. Nazarova**

## Contributions of our national press to the national awakening of the Azerbaijani people at the end of the XIX century

### Summary

The period of formation of socio-political and national literary thought in Azerbaijan coincides with the end of the XIX century. Also, the beginning of the struggle for enlightenment and the national press in our country, the establishment of the national

liberation movement is one of the characteristic features of this period. Thus, the press, which contributes to the development of nations and national self-consciousness, has done great work for the progress of the Azerbaijani people and the awakening of national consciousness. The article examines the role and importance of the press in the social and political life of Northern Azerbaijan during this period, and discusses the relationship between the Azerbaijani national liberation movement and our national press.

**Redaksiyaya daxil olub:** 22.02.2021